# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 18 (1701) 31 oktyabr 2019 - cu il Qiyməti 50 qəpik


# Prezident İlham Əliyev Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı enerji sahəsində Böyük Britaniyanın Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyri-neft sektorunda əməkdaşlığın inkişafı üçün də geniş imkanların olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin genişlənməsində Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rolunu qeyd etdi.

Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu deyən Baronessa Emma Nikolson iqtisadi, ticari, mədəni və humanitar sahələrdə əlaqələrimizin inkişafı üçün səylərini əsirgəmədiyini bildirdi. O, Azərbaycana səfəri çərçivəsində çoxsaylı görüşlər keçirdiyini, Muğam Mərkəzində olduğunu və bu Mərkəzin onda böyük təəssürat yaratdığını dedi.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı, səhiyyə, elm, təhsil, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı.



## BU SAYIMIZDA




2

## BÖYÜK ELMİ ŞURADA

## ATU-nun rektoru Çinin Gansu Universitetinin nümayəndə heyətini qəbul edib 3



## Rektor Rezidentlərin Attestasiya Komissiyasının üzvləri ilə görüşüb 3




## Ümumdünya Psixi Sağlamlıq Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib 3



# Böyük Elmi Şurada

◆ **ATU-nun Böyük Elmi Şurasının növbəti iclası oktyabrın 29-da keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**

**"Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinin qarşısında duran əsas vəzifə yüksək ixtisaslı həkim-stomatoloq kadrları hazırlamaqdır. Bundan ötrü fakültə əməkdaşlarının ümdə vəzifəsi tədris və onun metodikası, elmi-tədqiqat və tərbiyə işlərini günün tələbləri səviyyəsinə qaldırmaqdır. Bu vəzifələrin yerinə yetirilməsində dekanlığın, fakültə kollektivinin, onun Elmi Şurasının, işçi komissiyalarının və ictimai təşkilatlarının böyük rolu vardır".**

**Əvvəlcə "2017-2019-cu illər üzrə Stomatologiya fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə fakültənin dekanı, dosent Səid Əhmədovun hesabat məruzəsi dinlənilib. Məruzədə imtahan nəticələrinin illər üzrə müqayisəli təhlilinə, tədris metodik və tələbələrlə tərbiyəvi işin vəziyyətinə geniş yer ayrılıb.**



Son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparıldığını deyən fakültə dekanı qeyd edib ki, yeni inkişaf meyarları əsas götürülməklə universitetimizin kadr potensialının və maddi texniki bazasının gücləndirilməsi, ali təhsilin yüksək standartları istiqamətində mühüm addımlar atılmaqdadır: "Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinin qarşısında duran əsas vəzifə yüksək ixtisaslı həkim-stomatoloq kadrları hazırlamaqdır. Bundan ötrü fakültə əməkdaşlarının ümdə vəzifəsi tədris və onun metodikası, elmi-tədqiqat və tərbiyə işlərini günün tələbləri səviyyəsinə qaldırmaqdır. Bu vəzifələrin yerinə yetirilməsində dekanlığın, fakültə kollektivinin, onun Elmi Şurasının, işçi komissiyalarının və ictimai təşkilatlarının böyük rolu vardır".

Tədris-metodik sənədlərin hazırlıq səviyyəsində müəyyən çatışmazlıqların mövcudluğuna da toxunan məruzəçi səhvlərin əsasən balların yanlış hesablanmasında, kafedra müdiri, müəllim və tələbələrin imzalarının olmamasında, tələbələrin qiymətlərinin dəyişik yazılmasında, səliqəsizlikdə və pozuntuların hədsiz çox olmasında özünü göstərdiyini bildirib.

2018/2019-cu tədris ilinin Payız semestrində 1039 tələbədən 876-sının imtahanda iştirak etdiyini, onlardan 762-sinin imtahanı müvəffəqiyyətlə verdiyini söyləyən dekanın sözlərinə görə, semestr üzrə müvəffəqiyyət-kəmiyyət göstəricisi 89.2%, keyfiyyət göstəricisi isə 39.3%-dir: "Beləliklə, 2017/2018-ci tədris ili ilə müqayisədə 2018/2019-cu tədris ilinin həm keyfiyyət, həm də müvəffəqiyyət göstəricilərində artım vardır.

Keyfiyyət göstəricilərində artımın daha çox I kurslarda müşahidə edilməsində ötən ildən tətbiq olunan "Aralıq qiymətləndirmə"nin mühüm rolu olmuşdur.

2018/2019-cu tədris ilinin Yaz semestrində isə I-V kurslar üzrə 1026 tələbədən 960 nəfəri (93.5%) imtahanda iştirak etmişdir. 788 tələbə (82,1%) sessiyanı müvəffəqiyyətlə başa vurmuş, 172 nəfərin (16,7%) akademik borcu qalmış və 66 nəfər (11-i üzürlü, 55-i isə üzrsüz səbəbdən) imtahanda iştirak etməmişdir.

Göründüyü kimi, 2017/2018-ci tədris ili ilə müqayisədə 2018/2019-cu tədris ilinin həm qış, həm də yay imtahan sessiyasının göstəricilərində artım müşahidə olunur".

Hesabat məruzəsində 2019/2020-ci tədris ilində Stomatologiya fakültəsində təhsil alan tələbələrin say tərkibi də öz əksini tapıb: "Tələbələrin ümumi sayı 1120 nəfər olmuşdur ki, onlardan da 405-i yerli, 715-i xarici vətəndaşdır. Yerli tələbələrin 155-i dövlət sifarişi ilə, 250-si isə ödənişli əsaslarla təhsil alır. Fakültə üzrə tələbələrin 739-u Azərbaycan (345 nəfəri yerli və 394 nəfəri xarici olmaqla), 76-sı rus (60 nəfəri yerli və 16 nəfəri xarici olmaqla), 305-i ingilis bölməsində təhsil alır.

Azərbaycan bölməsində təhsil alan xarici tələbələrin yerlilərlə müqayisədə mənimsəmələri zəifdir. Yəni hazırlıq kurslarında həm tədrisin keyfiyyəti, həm də dərslərə nəzarət artırılmalıdır. Digər tərəfdən ingilis bölməsində olan əcnəbi tələbələrə dərs keçən müəllimlərin dil bilgisinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Bununla bağlı artıq bəzi qruplardan şikayətlər dekanlığa daxil olmaqdadır".

Stomatologiyanın tədrisində yeniliyin tətbiqinin zəruriliyini vurğulayan dekan dünyada qəbul olunmuş bir sistemin - dişin morfologiyasının hazırlanması metodunun Ortopedik stomatologiya kafedrasında tətbiq edilməsini müsbət hal kimi qiymətləndirib. Eyni zamanda dərsliklərin, tədris vəsaitlərinin, tədris-metodik işləmələrin dərc edilməsinin tədrisin keyfiyyəti və səmərəsini yüksəltmək baxımından xüsusi əhəmiyyətini qeyd edib.

Fakültənin tərkibində olan kafedralarda çalışan 10 nəfər professor, 33 nəfər dosent, 126 nəfər baş müəllim, assistent, müəllim olmaqla, ümumilikdə 169 nəfərdən ibarət professor-müəllim heyətinin təlim-tərbiyə işindəki rolundan söz açan dekan onu da bildirib ki, fakültə dekanlığının qarşısında duran məqsədlərdən ən önəmlisi tələbələrə qayğı ilə yanaşmaq, qarşılıqlı hörmət və sevgi çərçivəsində onların etibarını qazanmaq olmuşdur. Bu baxımdan onlarla mütəmadi görüşlərin, tədbirlərin keçirilməsinin müstəsna əhəmiyyəti vardır.

Məruzəçi bu ildən etibarən tələbələrin elektron jurnal vasitəsilə müəllimlərin fəaliyyətini, davranışını qiymətləndirə biləcəyinə də diqqət yönəldib. Vurğulayıb ki, bu sistem tam şəffaflığa təminat verir: "Tələbələr jurnalda yaradılan xüsusi pəncərəyə daxil olmaqla imtahan prosesinin gedişi və müəllimlər barədə sualları da cavablandıra biləcəklər. Yeni yaradılan "aralıq imtahanı" haqqında da tələbələrə geniş məlumat verilib. Bu üsulun tətbiq edilməsi və belə görüşlərin davam etdirilməsi ancaq və ancaq tələbələrin xeyrinədir.

Fakültə dekanlarının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Tələbə Elmi Cəmiyyətinin təqdimatları əsasında elmi fəaliyyətlə məşğul olan, universitetin ictimai həyatında fəal iştirak edən və nizam-intizamı yüksək olanlar "İlin ən yaxşı elmlə məşğul olan", "İlin ən yaxşı dərsə davamiyyəti olan və dərslərini yaxşı oxuyan", "İlin ən aktiv" tələbəsi nominasiyaları üzrə tələbələr hörmətli rektorumuz, professor Gəray Gəraybəyli tərəfindən mütəmadi mükafatlandırılır".

S.Əhmədov çıxışının sonunda fakültənin professor-müəllim heyətinin və tədrisə yardımçı əməkdaşlarının qarşıdakı tədris illərində bütün real və potensial imkanlarını səfərbərliyə alıb daha böyük məsuliyyətlə çalışacaqlarına, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında bilik və bacarıqlarını sərf edəcəklərinə əminliyini bildirib.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Rəna Əliyeva, Ağa Paşayev,



Zemfira Məmmədova və Vəfa Pənahian hesabatı qənaətbəxş qiymətləndirərək qazanılan uğurlarla yanaşı, mövcud problemlərin həlli yollarından da danışıblar.

Müzakirələrə yekun vuran rektor ilk növbədə konkretliyi ilə fərqlənən, istər müsbət istiqamətləri, istər problemləri qabardan bir hesabat dinlədiklərini bildirib və gələcəkdə də hesabatların məhz bu cür yeni üsulla hazırlanmasını tövsiyə edib. Təkcə fakültədə deyil, universitetdə gedən islahatların həm kafedralara, həm də administrativ işlərə bilavasitə təsir göstərdiyini vurğulayan professor G.Gəraybəyli kafedra müdirlərinin dekanlarla sıx əməkdaşlıq şəraitində işləmələrinin vacibliyini önə çəkib.

Müxtəlif fakültələrin kafedralarında dekanlıq və tədris şöbəsi tərəfindən yoxlamalar aparıldığını xatırladan rektor bəzi kafedra müdirlərinin, xüsusən də bir neçə bazada yerləşən kafedraların müdirlərinin öz vəzifələrinə məsuliyyətsiz yanaşmalarını kəskinliklə qınayıb. İnsan anatomiyası və tibbi terminologiya kafedrasında kafedra müdirinin hər gün müəllimlərin necə dərs deməsindən xəbərdar olmasını, ilin əvvəlində onlar üçün seminar keçirildiyini, biliklərinin, pedaqoji qabiliyyətlərinin yoxlanıldığını nümunə çəkərək digər kafedra müdirlərini də bu təcrübədən yararlanmağa çağırıb.

Yaşadığımız dövrün yeni tələblərini anlamaq istəməyənlərə cənab Prezidentin müxtəlif çıxışlarına, xüsusən də son çıxışlarına qulaq asmağı tövsiyə edən professor G.Gəraybəyli köhnə sistemdən, köhnə təfəkkürdən uzaqlaşmaq zamanı olduğunu xatırladıb: "Kafedra müdiri kafedrada olmadığı halda heç bir prosesə - nə kadr məsələsinə, nə tədris-metodik işə, nə də digər məsələlərə nəzarət edə bilməz. Proqramların yenilənməsi daim diqqət mərkəzində saxlanılmalıdır. Biz çalışırıq ki, universitetin inkişafını strateji istiqamətə yönəldək".

Professor G.Gəraybəyli yekun nitqində kredit borcları olan tələbələrlə ciddi iş aparmağın zəruriliyini, qiymətləndirmə metodlarının təkmilləşdirildiyini və aralıq imtahanları ilə bağlı təkliflər gözlədiyini vurğulayıb. Həmçinin, çıxışlarda səslənən təkliflərə və digər məsələlərə də aydınlıq gətirib.

01 sentyabr 2019-cu il tarixindən etibarən ATU-da əmək haqlarının orta hesabla 10% qaldırılması, doktorantura və dissertantura müddəti başa çatmış, lakin dissertasiyasının ilkin müzakirəsi keçirilməyən iddiaçılar, dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri barədə qərar və təklifləri təsdiqləyən elmi şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# ATU-nun rektoru Çinin Gansu Universitetinin nümayəndə heyətini qəbul edib

**◆ Çinin Gansu Universitetinin mütəxəssisləri Azərbaycan Tibb Universitetində Çinin ənənəvi təbabətinin tətbiqinə dair kurs keçirlər. Kurs çərçivəsində Gansu Universitetinin nümayəndə heyətinin ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşü baş tutub. Görüşdə Gansu Universitetinin Çin Təbabətinin baş həkimi Yao Xiaoqiang, həmin universitetin professoru Qin Xiao, Elm və Texnoligiya üzrə Alyansın baş katibinin müavini Li Renying iştirak ediblər.**



Azərbaycan Tibb Universiteti ilə əməkdaşlığa görə qonaqlara təşəkkürünü bildirən rektor, professor Gəray Gəraybəyli bu kursun ATU və Gansu Universiteti arasında əlaqələrin uğurlu başlanğıcı və sonrakı inkişafına xidmət edəcəyini qeyd edib: "Hər iki universitetin rəhbərliyi qarşılıqlı əməkdaşlığa, ortaq layihələrə həvəslidir. İnanıram ki, münasibətlər yalnız kursların keçirilməsi ilə məhdudlaşmayacaq, gələcəkdə həkim, müəllim və tələbə mübadiləsi, birgə elmi işlərin aparılması ilə bağlı da fəaliyyətimiz olacaq".

Gansu Universitetinin Çin Təbabəti bölməsinin baş həkimi Yao Xiaoqiang ATU-da kursların təşkilindən razılığını bildirib: "Artıq 3-cü həftədir ki, Tibb Universitetində kurs keçirik. Burada yaradılan şərait olduqca gözəldir, həkimləriniz yeni bilikləri qəbul etməyə çox həvəslidirlər. Biz ənənəvi Ççin masajı, iynə terapiyası və müxtəlif mövzularda kurs keçirik. Azərbaycanlı fizioterapevtlər, həkimlər ənənəvi Çin təbabəti ilə çox maraqlanırlar. Ümid edirəm ki, gələcəkdə digər mövzular üzrə də tədbirlər təşkil edə biləcəyik".

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov, beynəlxalq əlaqələr üzrə prorektor Orxan İsayev, terapevtik və pediatrik propedevtika kafedrasının professoru Rafiq Təhməzov da iştirak ediblər.

# Rektor Rezidentlərin Attestasiya Komissiyasının üzvləri ilə görüşüb

**◆ Hər ilin oktyabr ayında Azərbaycan Tibb Universitetində rezidentlərin dövri yekun attestasiyası keçirilir.**



Prosesin təşkili ilə bağlı səhiyyə nazirinin "Rezidentlərin yekun attestasiyasının keçirilməsi" barədə 14 oktyabr 2019-cu il tarixli 85 saylı əmrinə əsasən, Azərbaycan Tibb Universitetində Attestasiya Komitəsi yaradılıb. 121 nəfərdən ibarət komissiya universitetdə ayrı-ayrı ixtisaslar üzrə attestasiyanın aparılmasını təşkil edir.

Oktyabrın 24-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli həmin komissiyanın nümayəndələri ilə görüşüb. Rektor qeyd edib ki, ötən ilə nisbətən attestasiyadan uğurla keçən rezidentlərin sayı azalıb. Bu da imtahana yeni tipli sualların salınması ilə əlaqəli ola bilər: "O cümlədən, bir çox ixtisaslar üzrə imtahan sualları yenilənib. İstənilən halda nəticələr ciddi tədqiq olunaraq, aşkarlanan nöqsanlar barədə xüsusi tədbirlər görüləcək".

Rektor qeyd edib ki, rezidentlərin attestasiyasının ilk test mərhələsi oktyabrın 28-də ATU-nun imtahan mərkəzində keçiriləcək. İkinci praktiki mərhələ isə 30-31 oktyabr və 1 noyabr tarixlərində universitetin müvafiq klinikalarında aparılacaq.

"Bu il istər ixtisas sayı, istərsə də rezident sayı əvvəlki illərə nisbətən artıb. Test Mərkəzi, Apellyasiya Komissiyası da imtahanlara hazırdır. Bildiyiniz kimi, artıq 3 ildir ki, ATU-da qiymətləndirmə prosesində dəyişikliklər tətbiq edilir. Bu prosesə rezidentlərin də qiymətləndirilməsi aiddir. Bu il ilk dəfə olaraq attestasiyada açıq suallar tətbiq olunacaq. Rezidentlərin istəyini nəzərə alaraq, açıq sualların sayını 10-dan 5-ə endirmişik".

Görüşdə ATU-nun magistratura və rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədov çıxış edərək attestasiya prosesinin qaydaları haqqında geniş məlumat verib. ATU-nun I mamalıq-ginekologiya kafedrasının müdiri Elmira Əliyeva çıxışında yeni robotla dərslərin hazırlanması, eləcə də attestasiyaya hazırlıq işləri barədə informasiyanı açıqlayıb.

Qeyd edək ki, yekun attestasiyaya 34 bazadan 333 nəfər buraxılıb, onlardan da 29 ixtisas üzrə 131 nəfəri ATU-nun məzunlarıdır. Eyni zamanda, ötən il sınaqdan keçməyən bir neçə rezident də bu il attestasiyaya buraxılıb. Beləliklə, bu dəfə ümumilikdə 34 ixtisas üzrə 360 nəfər attestasiyadan keçməlidir.

# Ümumdünya Psixi Sağlamlıq Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib

## Qadın və uşaqlar daha çox intihara təşəbbüs edir

**"Dünyada hər 40 saniyədə bir nəfər öz həyatına son qoyur. Dünya Səhiyyə Təşkilatının bu göstəricisi intihar hallarının dünya miqyasında nə dərəcədə ciddi məsələ olduğunu göstərir. Digər ölkələrlə müqayisədə Azərbaycanda belə halların sayı çox olmasa da, təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdə hər il 400-dək insan həyatına son qoyur". Bu fikirləri ATU-nun rektoru, professor Gəray Gəraybəyli Ümumdünya Psixi Sağlamlıq Gününə həsr olunmuş elmi-praktik konfransdakı çıxışında bildirib.**






Professor G.Gəraybəyli deyib ki, Azərbaycanda intihar edənlər arasında uşaqlar, gənclər və ahıllar da var: "İntihar hallarının səbəbləri müxtəlifdir. Əsas diqqət intihar hallarının profilaktikasına, o cümlədən, intihar hallarına səbəb olan amillərin müəyyənləşdirilməsinə və aradan qaldırılmasına yönəldilməlidir. Bu məqsədlə bütün müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, vətəndaşlar, biznes qurumları öz fəaliyyətləri çərçivəsində əməkdaşlarının və əhalinin psixi sağlamlığının yaxşılaşdırılmasına əhəmiyyətli dərəcədə diqqət yetirməyə çalışmalıdır".

Rektor bildirib ki, müasir texnoloji dövrdə uşaqların psixi sağlamlığını qorumaq məqsədilə onları zərərli məlumatlardan müdafiə etmək lazımdır. Bununla yanaşı, ailədə və ailədənkənar yerlərdə uşaqlara qarşı şiddət aradan qaldırılmalıdır: "İş yerlərində əməkdaşların psixi sağlamlığının yaxşılaşdırılması, gərginliyin, stresin azaldılması, psixi sağlamlıq problemi olan əməkdaşların erkən aşkarlanması və onlara yardım edilməsi zəruridir. Eyni zamanda psixi pozuntuları, o cümlədən, psixoloji problemləri olan vətəndaşların vaxtında müayinə və müalicəyə cəlb olunması, onların müvafiq dərman preparatları ilə təmin edilməsi, əlbəttə, diqqət mərkəzində olmalıdır. Azərbaycanda da bu məsələlərə mühüm diqqət yetirilir".

"Psixi sağlamlıq: intiharların profilaktikasında tibbi və icma əsaslı yanaşmalar" mövzusuna həsr edilən toplantıda azərbaycanlı mütəxəssislər, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə Səhiyyə Nazirliyinin aparat rəhbəri Nadir Zeynalov çıxış edərək, insan sağlamlığının iki hissədən ibarət olduğunu vurğulayıb: "Birincisi onun psixi sematik sağlamlığı, ikincisi isə onun mental sağlamlığıdır. Psixi sağlamlıqda bir çox amillər - insanın sosial rifahı, problemləri rol oynayır. Öz növbəsində psixi sağlamlıq insanların cəmiyyətdə davranışına, digər insanlarla ünsiyyətinə, ümumiyyətlə, bütün insanların qarşılıqlı münasibətinə təsir göstərir. Nəticə etibarilə bu məsələ cəmiyyət və dövlət səviyyəsinə qalxır. Bununla bağlı olaraq, ölkəmizdə dövlət tərəfindən psixi sağlamlığa böyük diqqət və qayğı göstərilir".

İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Qəhrəman Haqverdiyev məktəblilər arasında mövzu ilə əlaqəli keçirilən sorğunun nəticələrini açıqlayıb: "Sorğunun nəticələrinə görə, rəyi soruşulan uşaqların təxminən 5 faizi mübahisələrin və zorakılığın şahidi olur. 32 faizi son bir ildə ən azı bir dəfə həmyaşıdları ilə mübahisə yaşayır. 14 faiz respondentlər ay ərzində internetdən istifadə edərək digər şəxslərlə kobud davranır və alçaldıcı rəftar edirlər. Buna "kiberbulinq" deyilir. Uşaqların dörddə biri isə iki həftə və daha çox müddətdə özünü kədərli və ümidsiz hiss edir. Ümumilikdə respondentlərin 2 faizi 12 ay ərzində intihar cəhdi barədə ciddi şəkildə düşünür".

Q.Haqverdiyev əlavə edib ki, son 12 ayda intihar haqqında ciddi düşünən qadınların sayı əhəmiyyətli dərəcədə artıb: "Xüsusən burada şəhərlərdə yaşayanlar üstünlük təşkil edib. Respondentlərin təxminən 10 %-i intihara təşəbbüs göstərib. Bu faktlar göstərir ki, psixi saglamlığa qayğı insanın doğulduğu gündən başlamalıdır".

ÜST-nin Azərbaycan üzrə rəhbəri Hande Hermancı ölümlərin əsas 2-ci səbəbinin intiharlar olduğunu deyib: "İntiharların 80 faizinə çox və orta gəlirli ölkələrdə rast gəlinir. Yaş qruplarından isə 45 yaşına qədər olan insanlar üstünlük təşkil edir. Cinslər arasında bölgü etsək, yüksək gəlirli ölkələrdə kişilər xanımlardan 3 dəfə çox intihar edir, ancaq aşağı gəlirli ölkələrdə isə bərabər olduğunu müşahidə edirik".

UNICEF-in Azərbaycan üzrə rəhbəri Edvard Karvardin Ümumdünya Psixi Sağlamlıq Gününə həsr olunmuş konfransda psixi çətinliklərlə üzləşən uşaqlar və gənclərlə problemləri və onlarla bağlı müvafiq həllərin görülməsinin vacib olduğunu deyib: "Dünyada hər il 67 min yeniyetmə özünə xəsarət yetirərək dünyasını dəyişir. Yeniyetmələrin hər onuncusunun özünə xəsarət yetirmə cəhdi olub. Ümumiyyətlə, daha yuxarı yaşda qız və oğlanlar arasındakı intiharlar ölümə səbəb olan əsas amillərdəndir. Gənclərin müxtəlif xəstəliklərinə səbəb olan amillər arasında davranış problemləri, özü-özünə xəsarət yetirmə, depressiv amillər yer tutur".

Çıxışlarda Azərbaycanda psixi sağlamlığın müdafiəsi baxımından görülən tədirlər, planlaşdırılan addımlar haqqında məlumat verilib. Qeyd olunub ki, 2011-ci ildə Səhiyyə Nazirliyi tərəfindən Psixi Sağlamlığın Müdafiəsinə Dair strategiya qəbul edilib, həmin strategiyada həm uşaq və yeniyetmələrin, həm də böyük yaşlı əhalinin psixi sağlamlığının qorunması ilə bağlı məsələlər öz əksini tapıb.

Qeyd edək ki, 10 Oktyabr tarixi bütün dünyada Psixi Sağlamlıq Günü kimi qeyd olunur. Hər il Ümumdünya Psixi Sağlamlıq Federasiyası Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə günün mövzusunu təyin edirlər. Bu il Ümumdünya Psixi Sağlamlıq Gününün əsas məqsədi və şüarı intihar hallarının qarşısının alınmasıdır. Ötən il isə ÜST tərəfindən depressiya ili elan olunmuşdu. ATU-da keçirilən tədbir Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azercell, Ümidli Gələcək təşkilatlarının dəstəyi ilə təşkil olunub.

Toplantıda müxtəlif sessiyalar keçirilib. "Azərbaycanda Psixi sağlamlıq xidmətləri", "Uşaq Qaynar Xəttləri və uşaqlar arasında intihar hallarının önlənməsi", "Psixi sağlamlığın mühafizəsində innovativ yanaşmalar və informasiya texnologiyaları: beynəlxalq təcrübə", "Qadınlarda intihar", "Qanunla ziddiyyətdə olan və zorakılığa məruz qalmış uşaq və yeniyetmələrin psixi sağlamlığı", "Azərbaycan və Avropa ölkələrində stasionar psixiatriya yardımının müqayisəli təhlili", "Bir ailənin faciəsi və onun yeniyetmələrin psixi vəziyyətinə təsiri" və digər maraqlı mövzularda elmi məruzələr səsləndirilib.

**ATU-nun mətbuat xidməti**

# ATU-da Dövlət Müstəqilliyi Günü qeyd olunub

**◆ Oktyabrın 18-də Dövlət Müstəqilliyi Günü ilə əlaqədar Azərbaycan Tibb Universitetinin Patoloji fiziologiya kafedrasında tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev dövlətimizin müstəqillik qazanması ilə bağlı xaqlımızın keçdiyi şərəfli tarix, 18 oktyabr 1991-ci ildə Ali Sove-



tin sessiyasında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi və 1918-1920-ci illərdə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan olunması ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib: "Konstitusiya Aktı 6 fəsil, 34 maddədən ibarət olub. 1991-ci il dekabrın 29-da bu məsələ ümumxalq referendumunda müzakirəyə çıxarılıb və əhalinin 95 faizindən çoxu müstəqilliyimizə, süverenliyimizə, istiqlaliyyətimizə səs verib".

Professor S.Əliyev ölkəmiz müstəqillik qazandıqdan sonra xalqımızın 28 ildə keçdiyi keşməkeşli həyat yolundan, ulu öndər H.Əliyevin müstəqilliyimizin qorunub saxlanması istiqamətində xarici və daxili qüvvələrə qarşı apardığı yorulmaz mübarizədən söhbət açıb: "Ölkəmizin müstəqillik qazandığı ilk dövrlər bəzi dövlətlər və qüvvələr müstəqillik qazanmağımızı heç cür həzm edə bilmirdi. Ölkəni idarə edənlər də elə idarəçilik təcrübəsinə malik deyildirlər. Buna görə də bəzi seperatçı qüvvələr ölkənin cənubunda Talış Muğan Respublikası, şimalında "Sadval", qərbində isə digər məsələləri qaldırır, müstəqilliyimizin varlığına təhlükə yaratmaq istəyirdilər.

Ökəmizin belə bir qarışıq dövründə müstəqilliyimizin ən yaxşı zəmanətçisinin məhz ulu öndər Heydər Əliyev olduğunu Azərbaycan ziyalıları yaxşı anlayırdı. Elə bu səbəbdən də xalqımızın və ziyalılarımızın dəvəti və müraciəti əsasında Heydər Əliyev hakimiyyətə gəldi. Heç şübhəsiz ki, onun hakimiyyətə gəlişi mstəqilliyimizin qorunub-saxlanmasında və inkişafında böyük əhəmiyyət kəsb etdi".

Prorektor istər sovetlər dönəmində, istərsə də ikinci dəfə dövlətimiz müstəqillik qazandıqdan sonra ulu öndərin hakimiyyəti dövrünü geniş təhlil edərək, onun elm, mədəniyyət, sənaye, kənd təsərrüfatı və digər sahələrin inkişafındakı rolundan söhbət açıb. SSRİ-də Nazirlər Sovetinin 1-ci müavini işlədiyi dövrdə də Azərbaycanın mənafeyi naminə gördüyü işləri diqqətə çatdırıb.

Tədbirdə ulu öndərin müstəqilliyimizin qorunub saxlanması istiqamətində fəaliyyətini əks etdirən film nümayiş etdirilib.

Qeyd edək ki, "Ulu Öndər" sənədli filmində Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar, Azərbaycan gənclərinə verdiyi tövsiyələr öz əksini tapıb.

Filmin quruluşçu rejissoru professor Rafiq Quliyev, redaktoru İradə Soltanova, prodüseri Üzlüfət Qasımovadır. Eyni adlı mahnının bəstəkarı isə xalq artisti Siyavuş Kərimidir. Mahnının sözləri filologiya elmləri doktoru, professor Rafiq Yusifoğluna məxsusdur.

**Qabil ABDULLAYEV**

# ATU-nun klinikalarına bu il qəbul olunmuş rezidentlərlə ənənəvi görüş keçirilib

**◆ Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında ATU-ya bu il qəbul olunmuş rezidentlərlə ənənəvi görüş keçirilib.**

Tədbiri giriş sözü ilə açan ATU-nun rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədov



onları təbrik edərək rezidentura təhsilinin təşkili qaydaları haqqında ətraflı məlumat verib. "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları", eləcə də əmək müqaviləsindən bəhs edən R.Məmmədov bildirib ki, toplantının əsas məqsədi nizam-intizam, işə davamiyyət, kafedra və şöbələrdə tabellərin düzgün doldurulmasına nəzarətin gücləndirilməsindən ibarətdir. İstər növbələrə qalan zaman, istərsə də gündəlik iş vaxtı kuratorlar rezidentlərin iş planı haqqında məlumatlı olmalıdır. Çünki bu fərdi iş planına əsasən rotasiya rezidentin dərs cədvəlidir. Kuratorlar onların fərdi iş planlarının hazırlanması və gündəlik sənədlərin doldurulmasına ciddi nəzarət etməlidirlər. Fərdi iş planı rezidentin əsas sənədi kimi qaydasında doldurulub tərtib edilməlidir. Rezidentlər həkimliyin qayda-qanunlarına, klinikaların daxili nizam-intizam qaydalarına düzgün əməl etməli, işlərində məsuliyyətli olmalıdır. Sözünə davam edən natiq qeyd edib ki, rezidenturada təhsillə bağlı bütün məsələlər, o cümlədən rezidentlərin yüksək səviyyəli həkim-mütəxəssis kimi hazırlanması işi hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin diqqət mərkəzindədir.

Sonra ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev, kafedra müdirləri Elmira Əliyeva, Məlahət Sultanova və başqaları çıxış edərək,



rezidentlərə təbriklərini çatdırıb, onlara seçdikləri ixtisaslara yüksək səviyyədə yiyələnmələrini tövsiyə ediblər. Qeyd olunub ki, Tədris Cərrahiyyə və Tədris Stomatoloji klinikalarında tədris-treyninq mərkəzləri mövcuddur və bu da rezidentlərin təcrübələrini artırmalarında mühüm rol oynayacaq. Çıxışlarda bildirilib ki, rezidentlər artıq gələcəyin yüksək ixtisaslı həkimləridir. Onlar üzərlərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməlidirlər. Çünki klinikalarda şərait müasir standartlara uyğun qurulub və rezidentlərin praktik vərdişlərə yiyələnmələri üçün hər cür imkanlar yaradılıb.

ATU Klinikalarının əsas məqsədlərindən birinin də müalicə işi ilə yanaşı, həm də yüksək ixtisaslı həkim-rezident hazırlamaq olduğunu vurğulayan natiqlər söyləyiblər ki, bu klinikalarda dünya standartlarına uyğun müayinə və müalicə üsulları tətbiq edilir.

Çıxışlarda rezidentlərə xarici dil biliklərini təkmilləşdirmələri də məsləhət görülüb. Çünki tibb sahəsi daima yeniliklərə açıq olan sahədir. Ona görə də həkim imicinin yüksək səviyyədə formalaşmasında rezidentlərin üzərinə böyük məsuliyyət düşür.

Professor R.Məmmədov yekun nitqində bildirib ki, professor Gəray Gəraybəylinin göstərişinə əsasən bu tədris ilindən etibarən bütün kurslar üzrə test suallarının yenilənməsi, o cümlədən sonuncu kurslarda yekun attestasiya üçün nəzərdə tutulmuş yeni tipli test sualları hazırlanır.

O, bir daha qeyd edib ki, rezidentlərin biliyinin yaxşılaşdırılması üçün onların xəstə müalicəsi və müayinəsində iştirakının təmin edilməsi zəruridir. Bundan başqa rezidentlər həm də elmi işlə məşğul olmalı, elmi konfranslarda tezis və məqalələrlə çıxış etməlidir.

Şöbə müdiri toplantının sonunda tədbir iştirakçılarını maraqlandıran sualları da cavablandırdıb.

**Mənsur ƏLƏKBƏRLİ**

# Əcnəbi tələbələr üçün kollokvium sorğusu keçirilib

**Oktyabrın 16-da Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinin I kursunda təhsil alan əcnəbi tələbələr üçün "Anatomiya" fənni üzrə 1-ci kollokvium sorğusu keçirilib.**





Sorğuda 50-dən çox tələbə iştirak edərək onlara verilən sualları cavablandırıb. Bu barədə məlumat verən İnsan anatomiyası və tibbi terminalogiya kafedrasının müdiri, professor Vaqif Şadlinski açıqlamasında bildirib ki, tədris ili ərzində 3 kollokvium keçirilir: "1-ci ilə 3-cü kollokvium sorğusu kafedranın müəllimləri tərəfindən, 2-ci isə Test Mərkəzində aparılır. Sonra hər 3 sorğunun cavabları toplanaraq tələbələrə yekun bal yazılır və sonra Test Mərkəzində imtahan verməli üçün buraxılır."

Professor V.Şadlinski yeni tədris ili başlayandan kafedranın müəllimləri tərəfindən proqramlara uyğun olaraq "Anatomiya" fənninin tədris edildiyini, hər gün dərsdənkənar saat 2-dən 6-dək növbətçi müəllimlər vasitəsi ilə onlara preparatlar və s. verildiyini qeyd edib: "Amma əfsuslar olsun ki, bu kurikulumda iştirak edən tələbələr zəiflik nümayiş etdirirlər. Bu səbəbdən məcburuq ki, onlara yenidən əlavə dərs deyək. Özünüz də görürsünüz ki, onların çoxu verdiyimiz suallara qanedici cavab vermədi."

Kafedra müdiri I kursda təhsil alan tələbələrin konsultasiya olunmaları üçün müəllimlərə əlavə tapşırıq veriləcəyini, tələbələrin dərslərini yaxşı mənimsəmələri üçün əllərindən gələni edəcəklərini də qeyd edib.

**ATU-nun mətbuat xidməti**

# Macarıstanın Debresen Universitetinin nümayəndəsi ATU-nun qonağı olub

**◆ Macarıstanın Debresen Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Dr. Laszlo Erdey Bakıya səfəri zamanı universitetimizdə olub.**



ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayevlə görüş zamanı cənab L.Erdey təmsil etdiyi universitet haqqında geniş məlumat verib. Qeyd edib ki, Debresen Universitetinin 27 min tələbəsi var: "Onlardan 5600 nəfəri xarici tələbələrdir. Debresendə 110-dan çox xarici ölkədən tələbə təhsil alır. 4 fakültəsi olan universitetin 7 kampusu fəaliyyət göstərir. 500-dən çox araşdırma laboratoriyalarımız mövcuddur. 80-dən çox ingilis dilli proqramlarla işləyirik". Laszlo Erdey Debresen Universitetinin nəzdində 2 klinikanın mövcud olduğunu da bildirib.

Orxan İsayev də qonağa Tibb Universitetinin tarixi, fəaliyyəti, təhsil-tədris sistemi haqqında geniş məlumat verib. Qeyd edib ki, gələn il 90 yaşını qeyd edəcək ATU ölkədə xarici tələbələrin sayına görə ön sıralardadır: "Universitetimizdə 30 xarici ölkədən, 2000-ə yaxın tələbə təhsil alır. Xarici tələbələrin qeydiyyatı artıq elektron şəkildə, 2 pilləli aparılır. Bir çox xarici ölkə universitetləri ilə mübadilə proqramı əsasında əməkdaşlıq edirik. 5 fakültəsi olan ATU-nun tibb şəhərciyi, 1700 yerlik 6 tələbə yataqxanası var".

O.İsayev həmçinin 4 universitet klinikası - Tədris Stomatoloji, Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikaları haqqında məlumat verib. Klinikaların son texnologiyalara uyğun müasir avadanlıqlarla təchiz olunduğunu, burada tədris treyninq mərkəzlərinin fəaliyyət göstərdiyini bildirib. Prorektor ali məktəbdə elektron mikroskop, farmokoloji laboratoriya, araşdırma laboratoriyalarının işi barədə də danışıb.

Görüşdə iki universitet arasında əməkdaşlığın istiqamətləri, gələcəkdə imzalanması planlaşdırılan ikitərəfli memorandumun şərtləri barədə fikir mübadiləsi aparılıb. Sonda Debresen Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Dr. Laszlo Erdey ATU-nun gələn il keçiriləcək 90 illik yubileyinə dəvət olunub.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri Müşfiq Orucov, xarici tələbələrlə iş üzrə dekan Qorxmaz Əhmədov da iştirak edib.

# Ərdəbil Tibb Elmləri Universitetində beynəlxalq əhəmiyyətli görüş

**◆ Oktyabrın 23-dən 24-dək İran İslam Respublikası Ərdəbil Tibb Elmləri Universitetində ATU və ƏTEU arasında qarşılıqlı əməkdaşlıq zəminində təşkil edilən regional "Vector-borne Diseases: A Global Challenge" adlı transmissiv xəstəliklər üzrə konfransda iştirak etmək üçün əməkdaşlarımız rəsmi dəvət əsasında Ərdəbil şəhərinə ezam olunmuşlar.**



Epidimiologiya kafedrasının müdiri, professor İbadulla Ağayevin rəhbərliyi ilə nümayəndə heyətində Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimov, Epidimiologiya kafedrasının dosenti, t.ü.f.d. Elman Vahabov, assisent Vaqif Cəlilov, Bioloji kimya kafedrasının elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Hafiz Osmanov konfransda fəal iştirak etmişlər. Azərbaycan dilində baş tutan bu konfranda leyşmanioz, malyariya və digər transmissiv yolla ötürülən xəstəliklərin epidimiologiyası, törədicilərin zonal olaraq aşkarlanması, bu xəstəliklərin diaqnozu və profilaktikasında birgə əməkdaşlıq səyləri müzakirə olunub. Ümumdünya Səhiyyə Təşkilatının daim nəzarətində olan belə xəstəliklərlə mübarizə İran İslam Respublikasının Səhiyyə və Tibb Təhsili Nazirliyi, ÜST-nın İran üzrə nümayəndəliyi, Ərdəbil Tibb Elmləri Universitetinin İctimai səhiyyə fakültəsinin əməkdaşları dr. İslami Moradiasl və dr. Mohammadi tərəfindən yüksək səviyyədə aparılmaqdadır.

Konfransı açan Ərdəbil Tibb Elmləri Universitetinin rektoru, Dr. Ghodrat Axavan-Akbari səmimiyyətlə nümayəndə heyətini salamlayaraq keçən il ATU-da öz nümayəndə heyəti ilə qonaq olduğunu bildirib. Hər iki universitet arasında anlaşma memorandumunun imzalandığını qeyd edərək, bundan sonra qarşılıqlı elmi əməkdaşlığın getdikcə artacağı barədə fikirlərini də söyləyib. Universitetin Beynəlxaq Əlaqələr uzrə prorektoru Dr. Mojtaba Amani universitetlər arasında olan əlaqələrin, xüsusi ilə elmi əməkdaşlığın artmasında belə görüşlərin əhəmiyyətini xüsusi ilə qeyd edib.

Yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirən professor İbadulla Ağayev bu cür xəstəliklərlə mübarizədə birgə elmi əməkdaşlığın əhəmiyyətindən söhbət açıb.

Tədbirdə kiçik elmi işçi Hafiz Osmanov hər iki universitet arasındakı elmi əməkdaşlıq əlaqələrindən bəhs edib. Dosentlər Vaqif Kərimov, Elman Vahabov, assisent Vaqif Cəlilov, Dr.İslami Moradiasl və digərləri tibbin müxtəlif sahələri üzrə bir sıra mövzularda çıxış edib, leyşmanioz və malyariyaya qarşı birgə mübarizə tədbirləri barədə fikir mübadiləsi aparıblar. Belə görüşlərin hər iki tərəfdə tez-tez keçiriləcəyi barədə fikirlər də səsləndiriblər.

Qonaqlar daha sonra Ərdəbil Tibb Elmləri Univerisetinin yüksək elmi texnologiyalarla təhciz olunmuş laboratoriyaları və klinikaları ilə tanış olublar.

# Stomatologiya fakültəsinin rəhbərliyi birinci kurs tələbələrilə görüşüb

**◆ Stomatologiya fakültəsinin rəhbərliyi I kurs tələbələri ilə görüşüb. Fakültənin dekanı, dosent Səid Əhmədov həm yerli, həm də əcnəbi tələbələrlə söhbət edib, onları maraqlandıran sualları cavablandırıb.**



S.Əhmədov bildirib ki, stomatologiya fakültəsinin qapısı daim tələbələrin üzünə açıqdır: "Universitetimiz artıq elektron universitetdir. Burada çox yüksək və müsbət yönümlü dəyişikliklər gedir. Klinikalarımızda tələbələrin tədrisinin mükəmməl olması üçün son nəsil robotlar quraşdırılır, tədris-



treninq mərkəzlərimiz inkişaf edir. Sizə dərslərinizdə uğur və məsuliyyət diləyirik. Universitet həyatında isə fəal olmağa çağırırıq".

Görüşdə fakültə rəsmiləri tərəfindən tələbələrə davamiyyət, təlim-tərbiyə məsələləri, kredit sisteminin şərtləri, aralıq qiymətləndirmə və imtahan qaydaları haqqında məlumat verilib.

Görüşdə stomatologiya fakültəsinin dekan müavini Kamran Babayev, akademik məsləhətçi Qələndər Aslanov, xarici tələbələrlə iş üzrə dekan müavini Mahmud Bağırzadə, tələbə dekan Əli Əliyev və fakültə üzrə TGT-nin sədri Adilə Abdullayeva iştirak ediblər.

Görüşdə həmçinin tələbələri maraqlandıran məsələlər müzakirə edilib, universitetdə aparılan tədris yönümlü islahatlar haqqında məlumat verilib.

# "İ2B İdeyadan Biznesə" layihəsinin 2019-cu il üzrə qalibləri açıqlanıb

## ATU StartUp-ın «Palliativ+» komandası respublika üzrə III yerə layiq görüldü

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, BMT-nin İnkişaf Proqramı, İnnovasiyalar Agentliyi, "Azercell" və "Microsoft" şirkətləri tərəfindən birgə reallaşdırılan "İ2B – İdeyadan Biznesə" layihəsinin respublika finalı keçirilib.**




"InnoWeek - İnnovasiya həftəsi" çərçivəsində Heydər Əliyev Mərkəzində təşkil olunan mərasimdə Bakı və region finalçıları arasından 2019-cu il üzrə qaliblər müəyyən edilib.

Tədbiri giriş sözü ilə açan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə layihə iştirakçılarını təbrik edib və onlara uğurlar arzulayıb.

"Nazirliyin fəaliyyət istiqamətlərindən biri də innovativ inkişafa dəstək verməkdir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində yaradılan İnnovasiyalar Agentliyi startapçılara öz ideyalarını reallaşdırmağa dəstək olur. Startap hərəkatını genişləndirmək, gənclər arasında innovativ düşüncə tərzini inkişaf etdirmək, onları aktiv şəkildə bu prosesə cəlb etmək üçün müxtəlif layihələr, təlimlər, müsabiqələr keçirilir. Paytaxt Bakı və regionlarda keçirilən "İ2B – İdeyadan Biznesə" startap turları da bu məqsədlərə xidmət edir", – deyə nazir bildirib.

R.Quluzadə qeyd edib ki, cari ildə iki mindən çox startapçı layihəyə qoşulub. Bu, layihənin gənclər arasında böyük marağa səbəb olduğunu və uğurla həyata keçirildiyini göstərir.

Qeyd edək ki, ölkəmizin 12 regionunda keçirilən startap turlarına 153 komanda qatılıb.

Bakı, Sumqayıt, Şamaxı, Şəki, Zaqatala, Tovuz, Göyçay, Gəncə, Lənkəran, Mingəçevir, Sabirabad və Naxçıvanda təşkil olunmuş startap turlarında 17 komanda yarımfinala keçib. Sonuncu seçim mərhələsində uğur qazanan 10 komanda – "Heal With" (Bakı), "Health bag" (Göyçay), "PayPort" (Naxçıvan), "Palliativ Plus" (Bakı), "Buqələmun" (Bakı), "OSHE-01" (Şirvan), "Peşəkar" (Naxçıvan), "Nano Desal" (Bakı), "Biobone" (Gəncə), "Agroshare" (Bakı) isə "İ2B – İdeyadan Biznesə" layihəsinin respublika finalında mübarizə aparıb.

Finalda layihələr mütəxəssislərdən ibarət münsiflər heyəti qarşısında təqdim edilib. Adları çəkilən 10 komanda ardıcıllıq üzrə müəyyən olunmuş vaxt ərzində layihələrini təqdim edib və onlara ünvanlanan sualları cavablandırıb.

Jüri tərəfindən ideyanın unikallığı, bazar potensialı, investisiyanın mənfəət müddəti, ilkin xidmətin/prototipin hazırlanmasına tələb olunan müddət, komandanın ideyanı gerçəkləşdirmə qabiliyyəti kimi meyarlar qiymətləndirilib.

Beləliklə, "İ2B – İdeyadan Biznesə" layihəsinin 2019-cu il üzrə qalibi "Healwith" komandası oldu. II yerə "Buqələmun" komandası, III yerə isə "Palliativ+" komandası layiq görülüb.

Təşkilatçılar və tərəfdaşlar tərəfindən ilk üç yerin sahibinə ideyalarını biznesə çevirmək üçün maliyyə dəstəyi göstəriləcək.

Qaliblər 3-6 dekabr tarixlərində təşkil ediləcək 25-ci "Bakutel" Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi Konfransında öz layihələrini təqdim etmək imkanı qazanıblar.

*ATU-nun mətbuat xidməti*

# Qeyri-infeksion xəstəliklərlə effektli mübarizə



**Müsahibimiz İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanovdur.**

**- Hamıya məlumdur ki, "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 2015-2020-ci illər üçün nəzərdə tutulub və biz 2020-ci ilin astanasındayıq, yəni artıq 4 ili arxada qoymuşuq. Bu sahədə görülən işlər barədə nə deyərdiniz? QİX-lə mübarizədə əsas istiqaməti nədə görürsünüz?**

- QİX-lə mübarizəyə dair Strategiyada olan tapşırıqlara əsasən bu mübarizədə iki istiqamət əsas götürülür. Birinci istiqamət QİX-in risk amillərinin aşkar edilməsi, öyrənilməsi, qiymətləndirilməsi və onların aradan qaldırılması mexanizmlərinin işlənib hazırlanması, ikinci istiqamət isə əhalinin profilaktik davranışını modifikasiya etmək, yəni onlara sağlam olmaq üçün nə etməli olduqlarını sadə, əlçatan və anlaşılan şəkildə başa salmaqdır (motivasiya).

Bizim kafedrada elmi rəhbərliyim altında ÜST-nın təklif və sərəncamlarını nəzərə alaraq əsas risk amillləri (hipertoniya, aşağı fiziki aktivlik, dislipidemiya, hipodinamiya, ABÇ (Artıq Bədən Çəkisi) və piylənmə, stress və s.) elmi-tədqiqat işləri əsasında öyrənilir. Hələ 2006-cı ildə kafedrada ürək-damar xəstəliklərinin əsas səbəbi olan və "gizli qatil" adı ilə tanınan hipertoniya sosial aspektdən ətraflı öyrənilmişdir. Hal-hazırda aparılan elmi araşdırmalar zamanı müəyyən etmişik ki, bütün dünyada olduğu kimi, Azərbaycan populyasiyası da etnik xüsusiyyətlərinə görə piylənməyə, ABÇ-nə çox meyllidir. Əhalinin 30%-dən çoxunda ABÇ və piylənmə müşahidə olunur və həmçinin hipodinamiya geniş yayılıb - əhalinin 40%-dən çoxu ümumiyyətlə az hərəkətlidir, qida rasionu düzgün təşkil olunmayıb, sağlam qidalanma və düzgün qida rejimi yoxdur. Məsələn, əhalinin əksəriyyəti qida rejiminə düzgün riayət etmir, yüksək kalorili qida məhsulları,"fast food" kimi ziyanlı qidalar yeyir. Digər tərəfdən bu qidalarla orqanizmə külli miqdarda xolesterin daxil olur. Bütün bunlar ateroskleroza, lipid mübadiləsinin pozulmasına, ABŞ və piylənməyə gətirib çıxarır. Bu vəziyyət xüsusilə digər risk amili olan hipodinamiya ilə müşayiət olunduqda enerji sərfi də azalır. Məlumdur ki, lipidlər, xüsusilə triqliseridlər orqanizmdə enerji daşıyıcısıdır. Enerji sərf olunmadıqda onlar depolarda yığılaraq piylənməyə səbəb olur. Apardığımız elmi araşdırmalar nəticəsində müəyyən etmişik ki, beynəlxalq standartlara görə insan sutkada 150 kkal enerji sərf etməlidir və tədqiqatlar göstərir ki, idmanla məşğul olmadıqda belə, gündə 1 saat mülayim templə piyada gəzmək bu enerjini sərf etməyə kifayət edir. Buna gündəlik riayət olunduqda insanlarda ABÇ və piylənmənin qarşısı alınır, eyni zamanda lipidlərin də sərf olunması müşahidə olunur.

Kafedrada öyrənilən QİX-in risk amillərindən biri də emosional stresdir. Stres xəstəliklərin yaranmasında müstəsna rol oynayan risk amillərindəndir. Müşahidələr göstərir ki, insanlar təkcə stres şikayəti ilə həkimə müraciət etmirlər. Amma xüsusi metodlar vardır ki, insan stresi özü aradan qaldıra bilər (məsələn, tənəffüs hərəkətləri, yoqa ilə məşğul olmaq və s.). Bu üsulları insanlara maarifləndirmə yolu ilə başa salmaq lazımdır ki, stres aradan qalxsın və daha da ağırlaşmasın. Həmçinin, bizim tədqiqatlar göstərdi ki, Mg (maqnezium) çatmamazlığını da risk amillərinə aid etmək olar. Mg orqanizmdə ən vacib elementlərdəndir. Mg olmayanda stres yaranır, ürək-damar fəaliyyəti pozulur. Amma indi maqneziumu bərpa etmək üçün asan yollar var. Mg tərkibli qidalar (meyvə, tərəvəz, qoz, mineral su və s.) yeyilməlidir. Profilaktik məqsədlə Mg tərkibli preparatlar da qəbul edilə bilər. Həmçinin xörək duzunu da bu sıraya aid etmək olar. Müəyyən olunub ki, bizim populyasiyada etnik xüsusiyyətlərimizə görə xörək duzundan çox istifadə olunur. Belə ki, Na Cl gündəlik normadan 2-3 dəfə artıq qəbul edilir.

Məlumdur ki, siqaret çəkmə də mühüm risk amillərindəndir və tütün orqanizmə ciddi ziyan vurur. Siqareti atmaq çox çətindir. Amma bizim müşühidələr göstərir ki, əhali arasında aparılan söhbətlərin böyük əhəmiyyəti var, yəni onlara siqaretçəkmə intensivliyini azaltmağı başa saldıqda, məsələn, "20 gün 1 siqaret azalt", "növbəti 20 gün daha 2 siqaret az çək", yəni "tədricən azalt" deməklə onlarda motivasiyanı artırmaq olur. Nəticələrdən məlum olur ki, 50 % insanlar deyilənlərə əməl edir və əgər bu bütöv populyasiyada baş versə, görün sağlamlığa nə qədər müsbət təsir etmiş olar.

**- Siz düşünürsünüzmü ki, 2020-ci ildə artıq QİX-lə mübarizə tamamilə həyata keçiriləcək? Yəni bu xəstəliklərlə mübarizə üsullarını tam şəkildə konkret verə biləcəyikmi?**

- Strategiyanın 2015-2020-ci illər üçün nəzərdə tutulması o demək deyil ki, bizim işimiz 2020-ci ildə bitir. Bu xəstəliklər sivilizasiya xəstəlikləridir. Nə qədər ki, sivilizasiya inkişaf edir, bir o qədər də bu xəstəliklər yaranacaq. Bu xəstəliklərlə mübarizə 2020-ci ildə dayanmamalıdır. Biz əsas tövsiyələri ortaya çıxarırıq, 2020-ci ildən sonra bu tövsiyələr QİX-lə mübarizədə nəzərə alınmalıdır.

Bu xəstəliklərlə mübarizədə bizim tutduğumuz mövqe profilaktikadır. Klinikalar nə qədər çox olsa da, o fərdi halda kömək edir və yalnız xəstə insanları müalicə edir. Biz isə xəstəlik yaranmamışdan onunla mübarizəni əsas götürürük. Biz çalışırıq ki, populyasiya səviyyəsində bu xəstəliklərin mümkün dərəcədə qarşısını alaq. Belə profilaktik tədbirlər ilbəil bu xəstəliklərin azalmasına gətirib çıxaracaq. Heç olmasa ağırlaşmaların tezliyi (infarkt, insult, hipertonik kriz) azalacaq.

Bu işlərin hamısının əsasında o dayanır ki, əhalinin tibbi savadı çox aşağıdır. Onların əksəriyyətinin bu profilaktik vasitələrdən demək olar ki, xəbəri yoxdur (xəstəliklərin risk amili nədir, bu xəstəliklərdən necə qorunmaq olar və s.) və ya əhali tibbi fəal deyil. Adı çəkilən Strategiyanı əldə əsas tutaraq biz əhali arasında kütləvi təbliğat aparmalıyıq. Bu işləri başlamışıq. Düzdür, bizim imkanlarımız çox məhduddur. Amma poliklinikalara, məktəblərə gedirik, valideynlərlə görüşürük, yaddaş kitabçaları paylamaq və s. kimi sadə yollarla (elmi əsaslandırılmış) sağlamlığı necə qorumağı başa salırıq. Bizim son 3-4 ildə apardığımız müşahidələr göstərir ki, həqiqətən də əhalinin savadı artdıqca onlar bunun faydasını görür və tibbi fəal olurlar, yəni poliklinikalara müraciət artır, onların dərman qəbuluna meylliliyi artır və bu da sağlamlığın əsas atributlarındandır. Çünki həkimə müraciət etmədikdə xəstəlik daha da ağırlaşır və müalicə də çətinləşir. İlkin simptomlar olduqda tez müraciət etmək lazımdır. Məsələn, biz təbliğ edirik ki, hər ailədə tonometr, qlikometr, XS-ni təyin edən portativ cihaz ("Accutrend plus") olsun. Hər kəs narahatlıq hiss edən kimi müayinə olunsun və təcili tədbir görülsün. Yəni vaxt itirməyərək həmin profil üzrə tez müraciət etsin.

**- QİX ilə mübarizədə yuxarıda sadaladığınız hansı risk amili əsas götürülməlidir?**

- Mübarizə ümumiləşmiş şəkildə, yəni kompleks aparılmalıdır. Bir risk amili ilə mübarizə bu xəstəliklərin qarşısını ala bilməz. Müəyyən olunub ki, təkcə bir risk amili çox vaxt xəstəliyə gətirib çıxarmır, risk amilləri kompleks şəkildə təsir edir, qarşılıqlı əlaqədə bir-birinin təsirini artırırlar. Polietiologi təsir daha güclü olur, yəni onlar eyni vaxtda təsir etdikdə xəstəlik yaranır. Məsələn, bu ilin iyun ayında Londonda piylənməyə həsr olunmuş beynəlxalq konfransda bizim kafedranın əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Yaqut Hacıyevanın təqdim etdiyi "Piylənmə və hiperxolesterinemiyanın qarşılıqlı asılılığının populyasion qiymətləndirilməsi" adlı çıxışı böyük maraqla qarşılandı və xüsusi sertifikata layiq görüldü. Başqa ölkələrdən də iştirak dəvətləri almışıq. Bizim elə əsas məqsədimiz də odur ki, bu xəstəliklərin ümumi risk amillərini tapaq və onların inteqrasiyalı kompleksini yaradaq, yəni onları aradan qaldırmaqla QİX-lərin, xüsusilə də ürək-damar xəstəliklərinin inkişafının qarşısını alaq ( HXS, hipodinamiya).

**-Qeyd etdiklərimizdən əlavə kafedranızın praktiki işləri də olubmu?**

- Bakı şəhərində, Quba rayonunda, məktəblərdə, müəyyən təşkilatlarda, ASAN xidmət və s. kimi yerlərdə tədbirlərimiz və təxminən 30 mindən çox əhali ilə maarifləndirici görüşlərimiz olub. Bundan başqa elmi-tədqiqat işləri zamanı aldığımız nəticələr əsasında metodik tövsiyələr hazırlayaraq müvafiq qurumlara təqdim edirik. Məsələn, əhali arasında hipertoniyanın gizli formalarını aşkar etmək üçün alqoritm hazırlamışıq, Quba rayonunda vərəmlə mübarizə üçün mobil texnologiyaların tətbiqi bu sahədə elmi əsaslandırılmış bir yenilikdir və nəinki bizim respublikada, hətta başqa ölkələrdə də böyük maraqla qarşılanmışdır. Bizim bütün praktik işlərimiz elmi əsaslandırılır və QİX-lə mübarizə istiqamətində elmi araşdırmalarımız hələ də davam edir.

**- Qeyd etdiniz ki, QİX-lə mübarizədə təbliğatın və maarifləndirmənin rolu böyükdür. Əsas təbliğatı nədə görürsünüz və aparılan bu işlərin daha yaxşı effekt verməsi üçün daha nələri təklif edərdiniz?**

- İndi bizə əsas yardım təbliğat sahəsində olmalıdır. Əsasən də kütləvi informasiya vasitələrində (KİV) uşaq və böyüklər üçün proqramlar hazırlanmalıdır. Televiziyada daha çox xəstəliklər haqda verilişlər var. Amma profilaktik söhbətlər aparmaqla insanlara başa salmaq lazımdır ki, öz sağlamlıqlarına biganə olmasınlar, onu qorusunlar. Dərman və s. sonrakı işdir. İlk növbədə insan özü xəstəliyə imkan yaratmamalıdır. Təbliğatın aparılmasında TV-nın, internetin rolu böyükdür. Yaxşı olar ki, Amerikada olduğu kimi 911 xidməti olsun. İstənilən şəxs zəng edərək və şikayəti barədə məlumat verərək lazımi köməyi ala bilsin. Sağlamlığın qorunması və maarifləndirmə məqsədilə "sms xidməti" olmalıdır.

Nəzərə alsaq ki, bu xəstəliklər insanların sağlamlığına mənfi təsir göstərir və bu xəstəliklər səbəbindən ölüm, eləcə də əlillik faizi yüksək göstəricilərə malikdir, eyni zamanda bütün bunlar ölkənin iqtisadiyyatına böyük zərər vurur, onda bu xəstəliklərlə mübarizənin ictimai-sosial əhəmiyyətə malik olması və bu iqtisadi zərərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyi bir daha özünü sübut edir. Ona görə də Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizənin həyata keçirilməsində mövcud Strategiyada adları çəkilən qurumların, təşkilatların da fəaliyyəti vacibdir, onlar da bu tədbirlərə cəlb olunmalıdırlar. Yalnız belə olan halda QİX-lə effektli mübarizə aparmaq mümkün olar.

**Günel ASLANOVA**

*Y u b i l e y l ə r*

## KOLLEKTİVİN VƏ TƏLƏBƏLƏRİN SEVİMLİSİ

**Sevil Mehdi qızı Kərimova 1939 cu il oktyabrın 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olub.**



S.Kərimova 1956-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirərək Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə, universiteti bitirdikdən sonra - 1961-ci ildə isə Lomonosov adına MDU-da fiziologiya ixtisası üzrə məqsədli aspiranturaya daxil olub.

S.Kərimova 1968-ci ildə "Bioloji modellərə radioprotektorların təsirinin öyrənilməsi" mövzusunda dissertasiya müdafiə edərək b.e.n. alimlik dərəcəsi alıb.

Sevil xanım 1970-ci ildən Tibb Universitetinin normal fiziologiya kafedrasında assistent, baş müəllim, 1990-cı ildən hazırkı dövrə qədər dosent vəzifəsində çalışır.

O, 65 elmi əsərin və məqalənin müəllifidir.

Pedaqoji kollektivin və tələbələrin rəğbətini qazanan Sevil xanım yüzlərlə həkimin yetişməsində böyük rolu var.

Başda AMEA-nın müxbir üzvü, professor Arif Məmmədov olmaqla Normal fiziologiya kafedrasının əməkdaşları Sevil Kərimovanı 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı uzun ömür arzulayırlar!

***Normal fiziologiya kafedrasının əməkdaşları***

## UĞURLAR ARZULAYIRIQ

**Bu günlərdə Terapevtik stomatologiya kafedrasının dosenti Rövşən İmran oğlu Səlimovun 70 yaşı tamam olur.**



Rövşən İmran oğlu Səlimov 1949-cu ildə Qubadlı rayonunda dünyaya gəlmişdir. O, 1969-cu ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Stomatologiya fakültəsinə qəbul olunmuş və 1974-cü ildə oranı bitirmişdir. R.Səlimov Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra, öz doğma Qubadlı torpağına qayıtmış və 1974-1987-ci illər ərzində orada həkim-stomatoloq vəzifəsində çalışmışdır. R.Səlimovun dərin zəkası, biliyi və bacarığına universitet rəhbərliyi biganə qalmamış və onu 1988-ci ildə Azərbaycan Tibb İnstitutunun Terapevtik stomatologiya kafedrasına assistent vəzifəsinə qəbul etmişlər. O, işlədiyi ilk günlərdən kafedra rəhbərliyinin ümidlərini doğrultmağa başlamışdır. R.Səlimov 1998-ci ildə Terapevtik stomatologiya kafedrasının o vaxtkı müdiri, tibb elmləri doktoru, professor Çingiz Paşayevin və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Hematologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Ziyəddin Əfəndiyevin rəhbərliyi ilə "Hemofiliyalı xəstələrdə əsas stomatoloji xəstəliklərin yayılma xüsusiyyətləri və müalicə-profilaktika tədbirləri" mövzusu üzrə dissertasiya işi müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. O, ATU-da uzun illər assitent və dosent kimi dərs demiş, elmi kadrların yetişdirilməsi sahəsində xidmətlər göstərmişdir.

Qeyd edək ki, o, 2005-ci ildən kafedranın dosenti vəzifəsində çalışır. R.Səlimovun 50-yə qədər elmi məqalənin, ixtiraların, 5 səmərələşdirici təklifin və 1 monoqrafiyanın müəllifidir.

O, uzun illər yaşlı şəxslərdə diş-çənə sisteminin problemləri və hemofiliya xəstəliyinin stomatoloji təzahürlərinin aradan qaldırılması üsullarını işləyib hazırlamışdır.

Bütün bu elmi-tətqiqatların nəticələrini alim öz monoqrafiyasında cəmləşdirilmiş şəkildə vermişdir. O, ictimai-siyasi tədbirlərdə də fəal iştirak etmiş və 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. Tələbələrə və gənc həkimlərə elmi fəaliyyətlərində yardım etmiş, tələbələrin, professor-müəllim heyətinin dərin hörmətini qazanmışdır.

İş yoldaşları, həmkarları və çoxsaylı tələbələri R.Səlimova cansağlığı, elmi-pedaqoji və ictimai fəaliyyətində uğurlar diləyirlər.

***Terapevtik stomatologiya kafedrasının əməkdaşları***

# Şərq təbabətinin öyrənilməsinə dair kurslar başa çatıb

**◆ Azərbaycan Tibb Universitetinin həkim və rezidentləri üçün Şərq təbabətinin öyrənilməsinə dair keçirilən 2 həftəlik silsilə kursar başa çatıb.**



Yekun tədbirində Gansu Dövlət Tibb Universitetinin professoru Qin Xiao, Çin Təbabəti bölməsinin baş həkimi Yao Xiaoqiang və Elm və Texnologiya üzrə Alyansın baş katibinin müavini Li Renying iştirak ediblər.

Tədbiri ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov açaraq, Çin ənənəvi təbabətinin öyrənilməsinə aid təşkil edilən kursların həkim və rezidentlərimiz üçün faydalı olduğunu bildirib. Qeyd edib ki, ötən ilin martında özünün də iştirakı ilə ATU-nun sabiq prorektoru Nadir Zeynalov, professor Rafiq Təhməzovla birgə Çin Xalq Respublikasının Gansu Dövlət Tibb Universitetində olublar. Universitetdə Çin təbabətinin incəlikləri, orada aparılan müalicə üsulları ilə bağlı aldıqları məlumat nümayəndə heyətinin ciddi marağına səbəb olub: “Biz Gansu Dövlət Tibb Universitetini nümunəvi ali təhsil ocaqlarından biri kimi qəbul etdik. Tədrisin səviyyəsi, xəstələr üzərində tətbiq olunan təcrübə və bunların yüksək nəticələri diqqətimizi çəkdi və bu barədə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə məlumat verdik. Hörmətli rektorumuz qabaqcıl yeniliklərin həmişə universitetimizdə tətbiqinə dəstək olduğundan, Çin təbabətinin öyrənilməsi üçün bu cür kursların təşkil edilməsinə dəstək verdi. Gələcəkdə fikrimiz var ki, bu sahənin öyrənilməsinə dair universitetimizdə hansısa bir fakültə təşkil olunsun”.

Gansu Dövlət Tibb Universitetinin professoru Qin Xiao öz çıxışında hər iki universitet arasında əlaqələrin yaranmasında ATU-nun rəhbərliyinə, o cümlədən elmi işlər üzrə prorektor Rauf Bəylərova və universitetin professoru Rafiq Təhməzova dərin təşəkkürünü bildirib: “Hesab edirəm ki, hər iki universitet arasında bundan sonra əlaqələr daha da dərinləşəcək və tələbə mübadiləsi edə biləcəyik. Əgər magistr pilləsini Çində davam etdirsəniz, özünüzü bu sahə üzrə təkmilləşdirə biləcək, əlavə zəruri məlumatlar öyrənəcəksiniz”. Professor Qin Xiao çıxışı zamanı Gansu Dövlət Tibb Universitetində oxuyacaq azərbaycanlı əlaqi tələbələrə təqaüd veriləcəyini, yataq və yemək xərclərinin Çin dövləti tərəfindən qarşılanacağını da bildirib. Çində təhsil alacaq tələbələrin heç bir problemlə üzləşməyəcəyini diqqətə çatdıran çinli professor, kursda iştirak edənləri öz ölkəsində təhsil almağa dəvət edib.

Elm və Texnologiya üzrə Alyansın baş katibinin müavini Li Renying də təşkil olunan kursların əhəmiyyətini qeyd edərək bildirib ki, Çin ənənəvi təbabəti ilə bağlı dərin bilikləri bir neçə kursda iştirak etməklə öyrənmək mümkün deyil. Bu sahəni dərindən bilmək üçün 5 il, 10 il və bəzən daha çox vaxt lazım olur. Bu səbəbdən Çində təhsil almağın zəruriliyini bir daha iştirakçıların diqqətinə çatdırıb. Qeyd edib ki, Azərbaycanda Çin ənənəvi təbabətini dərindən öyrənmək və yaxşı mənimsəmək üçün mövcud şərait var. Bunu univeristetin professoru Rafiq Təhməzovun 30 ildən artıq təcrübəsinin olması ilə əsaslandırıb.

Tədbir iştirakçılarının diqqətinə bu sahəni dərin öyrənməklə yanaşı, Çin tarixi, mədəniyyəti, mətbəxi və digər sahələrlə yaxından tanış ola bilmək şansını əldə edə biləcəklərini də çatdırıb.

ATU-nun Terapevtik və pediatrik propedevtika kafedrasının professoru Rafiq Təhməzov da keçirilən kursların əhəmiyyətindən söhbət açıb. Bildirib ki, universitetlər arasında tələbə və elmi mübadilənin aparılması olduqca vacibdir:” Universitetimizdə rəhbərlik tərəfindən Çin ənənəvi təbabətinin tədris olunması, bu sahənin tələbələrə daha geniş və yüksək səviyyədə öyrədilməsi nəzərdə tutulub. Çox istərdik ki, tələbələrimiz Şərq və Çin ənənəvi təbabətində istifadə olunan müalicə üsulları ilə yaxından tanış olaraq, pasiyentlər üzərində uğurla tətbiq etsinlər”.

İştirakçılar arasında da kursla bağlı müsbət fikirlər səsləndirənlər olub. Çıxış edənlərin əksəriyyəti kursların yüksək səviyyədə təşkilindən, öyrədilən mövzulardan, pasiyentlər üzərində tətbiq edilən üsullardan razı qaldıqlarını, bu cür kursların davamlı keçirilməsi arzusunda olduqlarını bildiriblər.

# Universitetimizn tələbələri könüllülər proqramına qoşulacaq

**2020-ci ildə keçiriləcək Avropa çempionatının A qrupunun 3 futbol oyunu və eləcə də 1/4 final oyununun iyun-iyul aylarında ölkəmizin paytaxtında – Bakı Olimpiya Stadionunda keçirilməsi nəzərdə tutulub. Avropa çempionatının 60-cı ildönümünün qeyd edilməsi üçün turnirin bütün Avropa qitəsini əhatə etməsi məqsədilə 2012-ci ildə UEFA İcraiyyə Komitəsi qərar qəbul edib. Bu səbəbdən də 2020-ci ildə Avropa çempionatının 12 müxtəlif ölkənin 12 müxtəlif şəhərindəki 12 müxtəlif stadionda keçirilməsi planlaşdırılıb.**



Nüfuzlu beynəlxalq yarışların keçirilməsi ilə əlaqədar olaraq ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri könüllü qismində iştirak ediblər. Onların arasında Azərbaycan Tibb Universitetinin tələbələri də fəallardan olub.

2020-ci ildə keçiriləcək Avropa çempionatında Bakıda keçirilməsi ilə əlaqədar olaraq təşkilatçılar “Komandanın bir hissəsi ol” şüarı ilə ATU tələbələrinin görüşünə gəliblər. Tədbiri açan I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov Avropa çempionatının final yarışlarının paytaxtımızda keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Yarışın daha mütəşəkkil keçirilməsi məqsədilə könüllülər proqramının tətbiq edildiyini və istəyi olan tələbələrin bu proqramda fəal iştirak etmək imkanlarının olduğunu bildirib.

Sonra ATV kanalının “İdman” verilişlərinin aparıcısı Sənan Şəfizadə bu yarışda ölkəmizin 21 ali məktəbində təhsil alan tələbələrin könüllülər qismində iştirak edəcəyini bildirib. 4 matçın Bakıya salınmasının ölkəmizin beynəlxalq aləmdə təbliğatı baxımından böyük əhəmiyyət kəsb edəcəyini vurğulayıb. O cümlədən iştirak edəcək könüllülərin üstünlüklərindən və əldə edəcək qazancdan söhbət açıb.

Çıxış edənlərdən “UEFA EVRO 2020”nin təşkilat üzrə meneceri Yusif Vəliyev və oyun keçiriləcək ölkələrin fəxri səfiri Taleh Yüzbəyov Avropa çempionatlığının yaranmasının tarixi, keçirilən yarışlar, oyunlarda fərqlənən oyunçular və s. ilə bağlı ətraflı məlumat veriblər. Həmçinin, futbol yarışının paytaxtımızda keçirilməsinin əhəmiyyətindən söhbət açaraq, tələbələri könüllü qismində fəal iştirak etməyə dəvət ediblər. Bu yarışda ölkəmizi 1800 könüllünün təmsil edəcəyini bildirərək, noyabrın 15-dək applicantportal.uefa.com saytı vasitəsi ilə qeydiyyatdan keçməyin mümkün olduğunu tələbələrin diqqətinə çatdırıblar.

Müsabiqədən sonra tələbələrə könüllü kimi yarışda iştirak edəcəklərinə icazə veriləcəyini, sonda isə sertifikatların təqdim olunacağını, onlara bir sıra güzəştlərin tanınacağını qeyd ediblər.

Tələbələrlə görüşdə “UEFA EVRO 2020”nin rəmzi olan Skilze də gəlib. Onun gəlişi tələbələrin sevincinə səbəb olub və sonda onlarla xatirə şəkili çəkdirib. Tələbələr də öz növbəsində bu yarşda könüllü kimi iştirak etmək üçün fikirlər səsləndiriblər.

**M.CAVADOV**

# Nümayəndələrimiz beynəlxalq cərrahiyyə konqresində aktiv iştirak ediblər

**Türkiyənin Antalya şəhərində 14-cü Hepato Pankreato Beynəlxalq Cərrahiyyə Konqresi keçirilib. Bu nüfuzlu toplantıda dünyanın müxtəlif ölkələrindən gələn 300-dən çox cərrah-mütəxəssis iştirak edib.**




Azərbaycan Tibb Universitetinin nümayəndələri də bu nüfuzlu konqresdə aktiv şəkildə iştirak ediblər. Nümayəndə heyətinin tərkibinə universitetin I cərrahi xəstəliklər kafedrasının təmsilçiləri, kafedra müdiri, AMEA-nın müxbir üzvü professor Nuru Bayramov, assistent, t.ü.f.d. Ruslan Məmmmədov və baş laborant Elvin İsazadə daxildir.

ATU-nun I cərrahi xəstəlikər kafedrasının təmsilçiləri Hepato Pankreato Beynəlxalq Cərrahiyyə Konqresində 9 mühazirə və poster ilə çıxış ediblər. Bu zaman pankreativ cərrahiyyədə yeniliklər, qaraciyər və öd yollarının cərrahiyyəsi ilə bağlı nailiyyətlər açıqlanıb.

Ümumiyyətlə, konqresdə qaraciyər transplantasiyası, qaraciyər kistası, minimal invaziv cərrahiyyəyə dair videolar nümayiş etdirilib, laporoskopik cərrahiyyə və digər mövzular ətrafında müzakirələr aparılıb. Elmi konfransın sonunda yüksək qiymətləndirilən və diqqət cəlb edən elmi işlər mükafatlandırılıb.

# Əməkdaşımızın məruzəsi beynəlxalq konfransda maraq doğurub

**Tibbi biologiya və genetika kafedrasının baş müəllimi, b.ü.f.d. Aytəkin Həsənova Tbilisidə keçirilmiş «Laboratoriya təbabətinə innovativ yanaşmalar» adlı birinci Beynəlxalq konfransda iştirak edib.**




Laboratoriya Təbabətinin İdarə Edilməsi və İnkişafı Birliyi tərəfindən təşkil edilən beynəlxalq konfransda müasir dövrdə diaqnostikanın vacib rolundan danışılıb. Dünyanın müxtəlif ölkələrindən olan iştirakçılar diaqnostikanın keyfiyyətinin, səviyyəsinin qaldırılması yolları, laborator və instrumental tədqiqatların aparılmasının vacibliyi, laborator xidmətinin inkişaf dərəcəsi və digər mövzularda məruzələr səsləndirib, müzakirələr aparıblar.

Adı çəkilən kafedranın baş müəllimi A.Həsənova konfransda müasir innovativ laborator diaqnostik metodların tətbiqi ilə apardığı xromosom patologiyalarının prenatal diaqnostikasi istiqamətində elmi araşdırmasının nəticələri haqqında geniş məruzə ilə çıxış edib. Dünyanın müxtəlif ölkələrindən olan alim və tədqiqatçıların qatıldığı beynəlxalq tədbirdə universitetimizin əməkdaşının çıxışı maraqla qarşılanıb və onun məruzəsi ilə bağlı müzakirələr aparılıb. Həmçinin, bir sıra tanınmış elmi mərkəzlərdən olan alimlərlə birgə gələcək elmi fəaliyyət planları ətrafında fikir mübadiləsi aparılıb.

**ATU-nun mətbuat xidməti**

# Fransalı rezident ATU-da təcrübə keçib

**❍ Fransanın Paris Dekart Universitetinin rezidenti Lidia Pouga Azərbaycan Tibb Universitetində klinikalararası təcrübə proqramını bitirib. O, proqram müddətində ATU-nun Elmi-Tədqiqat, Tədris-Klinik Mikrobioloji Laboratoriyasında və Tədris Cərrahiyyə Klinikasının Klinik-Diaqnostik Laboratoriyasında təcrübə keçib. Lidia Pouga bu mərkəzlərdə aparılan laborator-diaqnostik müayinələrlə tanış olub, xəstələrdən materialların toplanılması və mikrobioloji nəticələrin şərh olunmasında aktiv iştirak edib.**




Qeyd edək ki, fransalı rezident Lionun Klod Bernard Universitetini Biokimya ixtisası üzrə bitirib və elə həmin universitetdə neyrofiziologiya sahəsində magistraturada oxuyub. Sonradan 2007-2010-cu illərdə Pyer və Mariya Küri Universitetində nevrologiya sahəsində doktorantura təhsili alıb. Lidia 2010-2015-ci illərdə Monpelye Tibb Universitetində oxuyub. 2015-ci ildə Paris Dekart Universitetində mikrobiologiya və infeksion xəstəliklər ixtisası üzrə rezidentura təhsilinə başlayıb. O, rezidenturanın son semestrini klinikalararası təcrübə proqramı çərçivəsində 01.05.2019-01.11.2019-cu il tarixlərində Azərbaycan Tibb Universitetində keçib.

# ATU-nun nümayəndəsi Avrasiya Kardioloqlar Birliyinin diplomuna layiq görülüb

**Azərbaycan Tibb Universitetinin Kliniki farmakologiya kafedrasının assistenti, t.ü.f.d. Arzu Bəydəmirova Avrasiya Kardioloqlar Birliyinin Moskva şəhərində keçirilən konfransında iştirak edib.**




16-17 oktyabrda baş tutan beynəlxalq tədbirdə A.Bəydəmirova "Aşağı fraksiyalı ürək çatışmazlığı olan yaşlı xəstələrdə sakubitril/valsartan preparatının (yu-perio) sol mədəciyin arterial parametrlərinə təsirinin tədqiqi" mövzusunda tədqiqatların nəticələrini təqdim edib. Mövzu aktuallığına və işlənmə metoduna görə münsiflər heyəti tərəfindən fərqləndirilib və diploma layiq görülüb.

800-dən çox mütəxəssisin iştirak etdiyi tədbirin plenar iclası internet vasitəsilə canlı yayımlanıb. Toplantıda müxtəlif ürək xəstəliklərinin diaqnostikası və müalicəsi, xüsusilə ürək çatışmazlığının farmakoterapiyasında təsadüf edilən yeniliklərlə bağlı geniş müzakirələr təşkil olunub. Müxtəlif ölkələrdən olan kardioloqlar fərqli mövzularla əlaqədar fikir mübadiləsi apardılar.

# "Jest dili" təlimi tələbələrin marağına səbəb olub

**◆ Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə universitet tələbələri üçün "Jest dili" praktik və nəzəri təlimi təşkil olunub.**



THİK-nin sədri Elvin Kərimli çıxışı zamanı bildirib ki, tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün tərəfimizdən bir sıra tədbirlər, təlimlər, seminarlar, müxtəlif yarışlar və s. keçirilir: "THİK-nin nəzdində bir sıra dərnəklər, klublar, departamentlər və.s fəaliyyət göstərir. Onlardan biri də "Jest dili" klubudur. Kluba rəhbərlik edən II Müalicə-profilaktika faültəsinin IV kurs tələbəsi Nərgiz Məmmədlinin təşəbbüsü və bizim dəstəyimizlə bugünkü tədbir baş tutub.

Bilirsiniz ki, cəmiyyətdə kifayət qədər nitqi və eşitmə qabiliyyəti qüsurlu olanlar da var. Onlar sağlıq problemi ilə bağlı həkimə müraciət edirlər. Gələcəyin həkimləri olan bugünkü tələbələr belə pasiyentlərlə qarşılaşanda onları yaxşı anlasınlar deyə, bu cür təlimlər təşkil edirik. Bu, bizim tələbələrlə 2-ci görüşümüzdür. Sözsüz, bu cür təlimlərin təşkili və keçirilməsinin rolu olduqca böyükdür. Çünki tələbələrə mütəxəssislər tərəfindən nitq və eşitmə qabiliyyəti qüsurlu olanlarla necə təmas qurmağın yolları jest dili vasitəsilə öyrədilir".

Sonra "Deaf Community" MMC-nin təlimçi rəhbəri Nuranə Abıyeva jest dilinin mahiyyəti, xəstələrlə təmasın necə qurulması, qüsurlu uşaqların üzləşdiyi psixoloji problem zamanı valideynlərin nə etmələri, onların stresdən necə çıxarılması və s. ilə bağlı ətraflı məlumat verib. N.Abıyeva tələbələri maraqlandıran çoxsaylı suallara da cavab verərək, təlimdə fəal iştirak edənlərə sonda sertifikatlar təqdim edib.

Təlim tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

**◆ Oktyabrın 16-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında Bakı Neonatal Konfransının treyninq mərhələsinə start verilib.**

# Neonatal konfransın təlimləri başlayıb



Tədbirdə Səhiyyə Nazirliyinin baş neonatoloqu, ETMGİ-nin yenidoğulanların reanimasiya şöbəsinin müdiri Rüstəm Hüseynov çıxış edərək bildirib ki, yenidoğulmuşlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılması, bu sahədə çalışan tibb işçilərinin peşə bacarıqları və biliklərinin artırılması baxımından təlimlərin təşkilinin böyük əhəmiyyəti var.

ABŞ-ın Vanderbilt Universitetinin neonatologiya şöbəsinin dosenti Dr. Skot Qutri çıxış edərək, ölkəmizin müxtəlif bölgələrindən konfransda iştirak edən həkimlərə neonatologiyada müasir yanaşma prinsiplərindən danışıb, təcrübi vərdişlər üzərində izahlar verib.

Təlimlər çərçivəcində intubasiya/MİST və LMA ilə surfaktantın yeridilməsi, mexaniki ventilyasiyanın aparılması, lumbar punksiya, döş boşluğuna drenajın qoyulması, perikardiosentez, kardioversiya, sümükdaxili çıxışın əldə edilməsi (İntraosseous access), elmi məqalələrin yazılması və digər məsələlərlə bağlı müzakirələr təşkil olunub. Treninq çərçivəsində klinik tədqiqatların təşkili ilə bağlı sessiyalar keçirilib. Eyni zamanda, bir sıra yerli və xarici neanotoloqların məruzələri səslənib.

Qeyd edək ki, təlim 3 gün davam edib. Tədbirə 2-ci Beynəlxalq Neonatoloji Konqres və 3-cü Azərbaycan-Türkiyə Neonatoloji Təlim Kursunun iştirakçıları qatılıblar.

## Allah rəhmət eləsin!

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Tərlan Hacıyevaya bacısı

**Adilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın baş laborantı Tural Sadıqzadəyə qaynatası

**Əlişah Süleymanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları Mikrobiologiya kafedrasının müdiri Həqiqət xanıma həyat yoldaşı

**Rauf Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin V kurs, $211^{b}$ qrup tələbəsi Heydərova Nərgiz Kamil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $210^{b}$ qrup tələbəsi Yusifli Dürdanə Ehtiram qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $317^{a-2}$ qrup tələbəsi Məmmədli Yunis Nağı oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $168^{b}$ qrup tələbəsi İsayev İsa Füzuli oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $214^{b}$ qrup tələbəsi Ağazadə Kəmalə Söhrab qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin III kurs, $617^{r-1}$ qrup tələbəsi Qurbanzadə Rəşad Elşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin IV kurs, $641^{a}$ qrup tələbəsi İsmayılova Aidə Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin III kurs, $617^{a-2}$ qrup tələbəsi Rəhimov Tehran Mehman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mirzəyev Nicat Telman oğluna 1996-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $518^{a18}$ qrup tələbəsi Belali Khosvoşshahi Ali qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $117^{a-12}$ qrup tələbəsi Hacıyeva Səlma Bayram qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $317^{a-6}$ qrup tələbəsi Abdullayeva Finarə Sahib qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin IV kurs, $1125^{b}$ qrup tələbəsi Məcidli Cabir Rəşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin IV kurs, $1125^{b}$ qrup tələbəsi Cəfərli Sərxan Vadər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $47^{a}$ qrup tələbəsi İsmayılzadə Orxan Cavanşir oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $7^{a}$ qrup tələbəsi Qasımzadə Elmira Yasəf qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $418^{i-3a}$ qrup tələbəsi Fatimah Al–Juboor Hayder qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $219^{A-5a}$ qrup tələbəsi Nuriyev Sədyar Elburus oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 805 qrup tələbəsi Tabbaa Anas Tamam oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $219^{r-2b}$ qrup tələbəsi Qafarov Rövşən Bəhmən oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $1^{a}$ qrup tələbəsi Hüseynova İradə Fərhad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tibbqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200